# Qış nağılı...

## Cillə, Çərşənbələr və Novruz bayramı...

Yurdumuzun hər dərəsini, hər uçurumunu, hər zirvəsini təbiət elə yaratmışdı ki, sanki, bura, Laçın dağları insanlar üçün möhtəşəm qala, düşmən üçün isə fəlakət yuvası idi. Vətən torpağının hər daşı qəhrəmanlıq tariximizin bir sirrini özündə yaşadırdı. Xalqın qazandığı qələbələr də, düçar olduğu fəlakətlər də bir çox yurd yerlərində, adlarında əbədiləşmiş və canlı tarixə çevrilmişdir.

Laçın rayonu DQMV-nın Şuşa, Əsgəran, Xocalı, Kəlbəcər, Qubadlı rayonları və Ermənistanın inzibati əraziləri ilə həmsərhəd idi...

Yüksək dağ zirvələri, Dəlidağ silsiləsində, 3620 metr dəniz səviyyəsindən yüksəklikdə, Calbayır, Mıxtökən, Nərdivan, Qırxqız, Kotanqaya, Qorgündağ, Laləli, Sarıbaba dağlarının ətəklərindəki təpəliklər, yaylalar, düzənliklərlə, maraqlı relyef quruluşuna malik olan 206 oba, binə, kəndlər, 1 "Qaygı" qəsəbəsi, 1 Laçın şəhərindən ibarət olan yaşayış məntəqələri mövcud olmuşdu.

1992-ci ildə DQMV və onun ətrafında baş verən hadisələr zamanı Laçın rayonunda 58 min əhalisi öz doğma el-obasından, ata-baba yurdlarından Respublikamızın müxtəlif bölgələrinə səpələnməyə məcbur olmuşdular.

22 ildir ki, bir gözümüz ağlayır, bir gözümüz yol çəkir, el-oba həsrəti Laçınlıların gözləri yollara dikili qalıbdır. Hər bir azərbaycanlının şərəfli borcudur ki, bu gündən sonra, heç olmasa vətəndən gətirdikləri, adət-ənənələrini qoruyub saxlasın, gənc nəsillərə çatdıra bilsin. Adət-ənənələri yaşatmaq xalqın tarixini yaşatmaq deməkdir.

Bir ilin dörd fəsli vardır, hər bir fəslin özünə görə, öz xüsusiyyətləri olduğu kimi, bir-birilərindən fərqlənirlər. Gərək, fəsilləri yazı, yayı, payızı və qışı yaşayasan ki, ona şahid olasan ki, bir il tamam olsun, qış olmasa yaz olmaz, yaz olmasa yay olmaz, yay da olmasa payız olmaz deyiblər.

Deyimlərə görə, havalar iqlimin dəyişməsi ilə müəyyən olunmuşdur ki, ilin fəsilləri bir-birilərini əvəz edirlər. Qış fəsli başlayan gündən havalar soyumağa başlayır, qar yağır, sular donur, insanlar da libasını dəyişməyə başlayır, təbiət kimi.

Məşğul olduğu çöl, tarla, bağ, əkin, ev işlərini sahmana salaraq hər bir işin, vaxtını müəyyən etməklə bəzilərini təxirə salmaqla havaların istiləşməsini, yəni yazı gözləməli olurlar. Qış fəslində üç ay, yəni 90 gündən ibarət olmaqla, birinci ay - 30 gün Böyük çillə, ikinci ay - 30 gün kiçik çillə, üçüncü ay - 30 gün Boz ay günləri adlandırılmışdır.

Birinci il deyilənlərə görə, Böyük çillə günündən havalar yaxşı keçmişdir. Ancaq kiçik çillə günü dəcəllik edərək havalar çox sərt, soyuq keçməyə başlayır.

Xeyli müddət qar yağmağa başlayıb, şaxtalı günlər adamları çox incitməyə başlayır, soyuğun, şaxtanın hikkəsinə davam gətirə bilməyən adamlar özlərini ocağa, təndirə "təpməyə" məcbur olublar. Soyuqdan, şaxtadan insanlar da, heyvanlar da, hələ təbiətin özü də ziyan çəkməli olur, tələfat da olur.

Kiçik çilənin belə hərəkətlərindən adamlar çox əziyyət çəkirlər, bunu hiss edən Allah-təala Kiçik çilənin ömründən, yəni 30 günü azaltmalı olur, 10 günü götürərək Böyük qardaşı, Böyük çillənin üstünə atır. Böyük çillənin ömrü 40 gün olur. Kiçik çillə hələ də bundan qəzəblənir. Hikkəsi soyumayır, daha da qəzəblənir. Deyir ki, "hələ mənə imkan versəydilər, ananın bədənində balasını da dondurardım".

Kiçik çillənin ömrü 20 gün müddətində havalar yenə sərt keçdiyindən Böyük çillənin, 40 gününə çox şaxtalı, soyuq havalar keçməyə başlayır, hələ deyirlər ki, "Allah-təala sən rəhm et, nə yaxşı ki, kiçik çillə 30 gün deyildi", yoxsa dözmək olmazdı.

Qış fəsli tən yarı olanda, 45 gün tamam olanda, fevral ayının 5-7-nə təsadüf edilmişdir. Həmin gün, əlamətdar gün kimi qeyd olunmaqda idi. Xıdırnəbi bayramı günü adlandırılmışdılar. Qış fəslində adamların başını bir az ovundurmaq, məşğuliyyətinin artması üçün, bir az maraqlı və sevincəkli olsun deyə Xıdırnəbi bayramı keçirilməsi adət-ənənə şəklinə qədər gəlib çıxmışdır. Xıdırnəbi bayramına ona görə çox sevinənlər olurdu ki, qış yarı olmuşdur.

Xıdırnəbi bayramında su dəyirmanında üyüdülmüş, xüsusi buğda növündən olan undan, ailədə qoca nənələr Xəşil bişirərdilər. Ocağın üstünə misdən olan qazan qoyardılar. Su tökülərdi, su qaynara düşəndən sonra ailədə nəfər sayına görə un əlavə olunardı. Qazanı oxlovla qarışdırmağa cavanlar növbə ilə köməyə gələrdilər ki, bişsin...

Yeməkdən unun iyi gəlməyənə qədər, yəni bişənə kimi qarışdırardılar, hazır olanda xəşili mis sinilərə, dövrələrə çəkərdilər, xəşilin ortasını cala edərək, oraya ərimiş nehrə yağı, doşab, bəhməz əlavə edilərdi. Yeməklə doymaq olmazdı, xəşil yeməyi qış fəslində tez-tez bişirilən yeməklərdən biri idi. O adamları sərt soyuqlu havada, şaxtalı, qarlı havada dözümlü edərdi, müalicə əhəmiyyətli, güclü yemək hesab olunardı.

Xıdırnəbi bayramında üç gün davam edilirdi: həmin gün el arasında qodu-qodu oyunu da təşkil olunardı, bu barədə deyimlər də mövcud olmuşdur.

***Xıdırnəbi, Xıdırilyas,***
***Bitdi çiçək, oldu yaz***
***Xıdır gəlir hayla***
***Altında daynan***
***(yəni atla)***
***Yağ gətirin yağlayaq***
***Dəsmal verin bağlayaq***
***Dəsmal dəvə boynunda***
***Dəvə dəyirman yolunda***
***Dəyirman yolu buz bağlar***
***Üstü gül bağlar***
***Gülün birin üzəydim***
***Saç boynuma düzəydim.***

Qardaşımı toyunda bax belə süzəydim.

Kənd yerlərində Xıdırnəbi bayramında qodu-qodu gəzdirmək bir adət, ənənə olmuşdur. Bunu üçün səriştəli, hörmətli, hazır cavab, dilli baməzə adamlar seçilərdi. Qodu adama bənzər formada, müqəvvə düzəldilərdi, bəzədilərdi. Havaların isti keçməsi üçün Qodu-qodu gəzdirmək üçün qapı-qapı, ev-ev gəzdirilərdi. Qoduya pay, nəzir-niyaz verilərdi. Yığılan payı, nəzir-niyazı kənddə, obada ən kasıb yaşayan, imkansız ailələrə pay verərdilər. Bu barədə də el deyimi vardır.

***Qodu, qodunu görmədin?***
***Görüb salam vermədin***
***Qodu gedəndən bəri...***
***Qızmar gün görmədim***

40 gün Böyük çillə, 20 gün kiçik çillə günləri tamam olandan sonra bir ay Boz ay günləri başlayır. Yalançı çərşənbə Boz ayı simvolik olaraq qarşılayır, gəlişini xəbər verir. Boz ay bozara-bozara, qızara-qızara günlərini saymağa başlayır. Bir gündə 5 təbə düşür.

Hər həftənin çərşənbə günləri düzülməyə başlayır. Birinci çərşənbə - Su çərşənbəsi fevral ayının son günləri qədəm qoyur, beləliklə çərşənbələr davam etdirilir. Yəni çayların, bulaqların suyu buz bağlayan yerləri əriməyə başlayır. Havalar get-gedə yavaş-yavaş isinməyə başlayır. Təzə gəlinlər, nişanlı qızlar bulaq başına su gətirməyə gedərdilər, durna qatarı kimi düzülən qızları göz altı edənlər də olardı, oğlanlar tamaşaya çıxardılar, sevgi ovuna çıxardılar...

İkinci - Od çərşənbəsi - yazın, Baharın qoxusu hiss olunmağa başlayırdı. Günəş yavaş-yavaş ətrafı, torpağı isitməyə çalışırdı. Od çərşənbəsi günü hər bir ailədə toy, bayram kimi qeyd olunmağa başlanardı. Hər bir ailə üzvünün adına, sağlamlığın görə şam yandırılardı, ad olunardı. Axşam süfrə, xonça bəzədilərdi.

Üçüncü - Yel çərşənbəsi - təbiət oyanmağa başlayırdı. Torpaq isindiyindən bitkilər cücərməyə başlayırdı. Ağacların qol-budaqlarını tərpədərdi ki, yuxudan oyansınlar, bitkilər cücərməyə başlayardı. İlk yaz bitkisi Xıncılovuz bitkisi çıxdığı üçün yığılardı, kətə, "cırdala" yeməyi bişirilərdi. Novruz gülü çiçəyi ilk dəfə acardı. Nişanlı oğlanlar Novruz gülünü sevgilisinə hədiyyə verərdilər. Ağaclar tumurcuqlayardı. Zoğal ağacı ilk çiçək açan meyvə ağacı idi.

Dördüncü çərşənbə - Ana təbiətin oyanmasına görə əkinçilər, cütü, kotanları əkin sahəsinin kənarına sürülərdi. İlk yaz əkini gecikdirənlər heyfsilənərdilər ki, bu il məhsuldarlıq az ola bilər. Ona görə də yaz əkinin gecikdirmək olmazdı. Nənələr buğda isladıb, səməni qoyardılar ki, bu ilə bolluq olsun, dodaq altı oxuyardılar "səməni, səməni saxla məni, hər ildə göyərdərəm səni", əkinbiçin bərəkətli olsun. Axırıncı çərşənbə də deyərdilər. Həmin gecə kim nə yuxu görsəydilər, çin olardı. Deyimlərə görə həmin axşam su arxı kənarında bitən hündür söyüd ağacının baş budaqları həmin an əyilərək sudan su içir. Kəhrizlərdə, bulaqlarda da həmin an su dayanır.

Novruz bayramı günü təzə il, yeni il kimi qəbul olunardı. Novruz bayramı mərasiminin yaranma tarixi çox qədimdir. Bu mərasim qışın sona çatması və yazın gəlişi ilə bağlanır. Mərasimin qədim insanların təbiət hadisələrinə münasibəti etiqadı, həmçinin əmək fəaliyyəti ilə əlaqədar təşkil olunmuşdur. Odur ki, qışın başa çatması canlılar səbirsizliklə gözləyir, yazın gəlişi isə bambaşqa aləmdir. Bu zaman bütün aləm, təbiət, heyvanlar, bitkilər, canlılar dirilir.

Bizim tərəflərdə Novruz bayramına bir ay qalmış Boz aydan hazırlıq işləri görülməyə başlanardı. Məhəllələrdə, həyətlərdə, hətta evlərdə ciddi təmizlik, abadlıq işləri görülərdi.

Axırıncı çərşənbə günü gənclər bir yerə yığılıb kiflən, yelləncək asardılar. Keçmiş, köhnə qədim damlardan, möhkəm iplə, kəndirlə kiflən, yelləncək asardılar. Yelləncək, kiflənə iki qoldan ibarət olurdu. Yellənən oğlan və qız Bahar, yaz haqqında nəğmələr, mahnılar oxuyardılar. Subay qızlar mis baydacaya su tökərdilər, 2 iynənin dəliyinə sap salardılar. Üzük falına baxmaq üçün iynələri suya atardılar. İynələr bir-birilərinə yaxın gələndə qoşalaşanda, sevinərdilər ki, ürəyində nəzərdə tutduğu oğlan da ona meyli vardır, birləşməsi evlənmək əlamətidir.

Qızlar duzlu könbə bişirərdilər, yeyərdilər, su içməzdilər ki, gecə yatanda yuxuda hansı oğlan ona su versə idi, demək onların bir-birinə eşq-məhəbbəti vardır.

Oğlanlar qonşu qapısına gedərdilər, astadan qapıları açardılar papaq atardılar, sonra da qaçıb gizlənərdilər. Ev sahibi də hazırlanmış bayram payından onların papağına pay qoyardı. Sevinə-sevinə papağı götürüb o biri qonşuya gedərdilər.

Qızlar ürəyində niyyət tutaraq qonşu qapısına qulaq falına gedərdilər. Pusardılar, evdəkilər həmişə bayramda pis söz danışmazdılar. Xoş sözlər eşidəndə sevinərdilər, qapını açıb yaxşı söz eşitdiyinə görə onlara minnətdarlıq edərdi.

Od çərşənbəsindən hər bir ailədə evin qarşısında tonqal yandırılardı. Tonqalın başına toplananlar növbə ilə odun üstündən atlanardılar - "Ağırlığım uğurluğum odda yansın" deyərdilər.

Hər bir çərşənbə gününün axşamları ləziz, dadlı bayram aşı, plovu bişirilərdi. Maşlı, lobyalı, əriştəli, səbzi, cücəli aş, plov hazır olanda ailə üzvləri bir süfrə başına toplaşardılar, Bayram yeməyi yeyərdilər. Yaxın, əziz adamlara, qonşulara pay aparıb verərdilər. Fəsəli, kətə (qutab), yayma, südlü aş bişirilərdi.

Bizim ellərdə kətəni sacda bişirərdilər. Göy-göyərtidən, pendirşordan, özü də sacın tən yarısı boyda, qədərdə böyük bişirərdilər. İndi şahid olduğumuz anlarda küçələrdə tez-tez rast gəldiyimiz kiçik ölçüdə qutaba rast gəlirik. Buna da qutab deyirlər.

Bayramqabağı ailədə, ailə üzvlərindən kimisə uzaqdadırsa, səfərdədirsə, birinci həmin adam yad olunardı. Övladlar bayram qabağı valideynlərin ata, anasına, qocalara baş çəkməyə borcludurlar. O savab ziyarət deməkdir, mütləq onların bayramlarını təbrik edilməlidir.

Yumurta "döyüşünə" yarış mərasimi kimi təntənəli təşkil olunardı. Hər bir kəs bir səbət yumurta alıb, meydana yumurta döyüşdürmək üçün gələrdilər. Hər bir nəfər bir ədəd yumurta götürərək, sınana qədər rəqiblə "döyüşə" başlayırdılar. Axırda kimin əlində sağ yumurta qalsa idi, həmin adam "qalib" hesab olunardı və sınmış yumurtaları udmuş hesab edilərək ona verilərdi. Xoruz döyüşdürülməsi kimi maraqlı oyunlar mövcud idi. Bunun üçün qabaqcadan döyüşkən xoruzlar alardılar, bəsləyərdilər. Bayram günü meydana çıxardılan, aranı qızışdırılması üçün, xoruzun sahibi gizli olaraq xoruza ət yedizdirərdi. Xoruzların döyüşü zamanı kimin xoruzu qalib çıxsa idi, o qalib olaraq, məğlub olan xoruzu pay verərdi.

Bayram axşamına kimi yaxın qohumlar da, qonşular da, gileyli, küsülü adamlar olsa idi, onlar dərhal barışdırılardı. Küsülü adamlar barışmalı idilər, küsülü qalmaq olmazdı.

Novruz bayramı günü oğlanlar 2 dəstəyə bölünərək dirə döymə, toqqa diresi, ənzəlixan-ənzəli, xoruz fit ver, yoldaş səni kim apardı, çiling ağac kimi oyunlar keçirilirdi.

Novruz bayramı günü Keçəl və Kosanın məzəli oyunları, zarafatları adamların yaddaşından silinməz iz buraxardı. Atmacalı sözləri, Novruz bayram yaz fəslinə aid maraqlı söhbətləri, oxuduqları mahnılar yadda qalan olardı.

***Novruz, Novruz baharı,***
***Güllər, güllər baharı,***
***Novruz gəlir, yaz gəlir***
***Nəğmə gəlir, saz gəlir.***

***

***Bağçamızda gül olsun,***
***Gül olsun, bülbül olsun.***
***Bağçalarda gül olsun***

Gül üstə bülbül olsun nəğmələri oxunardı.

Yuxarıda qeyd etdiyi kimi, evlərdə səməni göyərdərdilər, yumurta boyayardılar, bunlar da yazın gəlişinin əlamətlərindən biridir. Yumurtaların qırmızı rənglərlə boyanması günəşin rəmzidir. Bu vaxt artıq günəş torpağı qızdırırdı, təbiət canlanırdı.

***Gün çıx, gün çıx!***
***Köhlən atı min çıx.***
***Oğlun qayadan uçdu,***
***Qızın təndirə düşdü.***

***

***Keçəl qızı qoy evdə,***
***Saçlı qızı götür çıx.***

Novruz mərasimində çox məqamlar, nəğmələr, mahnılarda oxunur vəsf olunardı. Lakin bunlardan çox az hissəsi gəlib bizə çatmışdır.

Bəzi yerlərdə, həmçinin Novruz bayramı dini bayram kimi qələmə verənlər, axırda başa düşdülər ki, "Novruz"-un dinlə heç bir əlaqəsi yoxdur, bu bayram Azərbaycanın Milli bayramıdır, dövlət səviyyəsində hər il qeyd olunmaqdadır.

Hər bir xalq öz adət-ənənəsi ilə tanınır, belə də olmalıdır, xalqımızın milli adətlərini nəyə görə unutmalıyıq, onu yaşadıb, yeni nəsillərə çatdırmalıyıq. Bayram bütün milli xüsusiyyətləri nəzərə alınmalıdır. Bayram tamaşaları təşkil olunmalı milli geyimlər, həmçinin milli musiqi alətlərində, zurna-balabanda, sazda və sair xalq mahnıları və muğamlar istifadə olunmalıdır.

Bayramın təntənəli və canlı keçməsi üçün Laçın rayonunda, kəndlərdə fəaliyyət göstərən mədəniyyət evlərinə, klublara, mağazalara, məktəblərə bu barədə göstərişlər verilirdi, bayrama ciddi hazırlıq işləri aparılırdı.

Xalqımızın adətlərini qoruyub saxlamaq hər birimizin borcudur. Xalqın adət-ənənəsini yaşatmaq, xalqın özünü yaşatmaq deməkdir.

**Nemət Bəxtiyar,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**